**İlbər Ortaylı**

# TÜRKLƏRİN TARİXİ 2

## ANADOLUNUN ÇÖLLƏRİNDƏN AVROPANIN İÇƏRİLƏRİNƏ

Tərcüməçi:
İnci Qasımlı

qanun nəşriyyatı

**İlber Ortaylı**

# TÜRKLERİN TARİHİ 2

ANADOLUNUN BOZKIRLARINDAN
AVRUPANIN İÇLERİNE

Türkiyənin tanınmış tarixçi və yazıçısı professor İlbər Ortaylı *"Türklərin Tarixi 2 – Anadolunun çöllərindən Avropanın içərilərinə"* adlı kitabında türklərin Anadolunun çöllərindən başlayıb Avropanın içərilərinə qədər uzanan tarixini mərhələli, təfərrüatlı, hər kəsin başa düşəcəyi şəkildə şərh edib.

Mərmərə bölgəsində (Vifiniya) kiçik bir bəylik olaraq yaranıb inkişaf edən və yarandığı ilk illərin üstündən 150 il keçmədən Balkanlarda və Egeydə hakimiyyətini quran, Aralıq dənizi dünyasının son möhtəşəm imperiyası olan Osmanlı-Türk imperiyası Rumelidən başlayan fəthlərindən sonra üç qitəyə yayıldı.

Bu kitabda iki torpağın və iki dənizin hökmdarı olan Fateh Sultan Mehmet kimi intibah hökmdarının dünyası ilə türklərin necə böyük bir imperiya qurduğunun şahidi olacaq, türklərin dövlət qurma strategiyası ilə tanış olacaqsınız.

**İlber Ortaylı** **TÜRKLERİN TARİHİ 2**
**ANADOLU'NUN BOZKIRLARINDAN AVRUPA'NIN İÇLERİNE**
**İlbər Ortaylı** **TÜRKLƏRİN TARİXİ 2**
**ANADOLUNUN ÇÖLLƏRİNDƏN AVROPANIN İÇƏRİLƏRİNƏ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 336 səh.

Janr: qeyri-bədii ədəbiyyat, tarix
Yaş qrupu: 14+
Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 26.10.2024

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: İnci Qasımlı
Redaktor: Cəlil Cavanşir
Korrektorlar: Həyat Hacıyeva, Bəsti Məmmədova
Texniki redaktor: Xəyalə Əhmədova
Mətn dizaynı: Xəyalə Şirinli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-577-69-3

© Qanun Nəşriyyatı, 2024
Türklerin Tarihi 2 © Kronik, 2023 via Introtema
Translation and Copyright Agency

Bu kitabın Azərbaycan dilinə tərcümə və
yayın hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli
hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

## İLBƏR ORTAYLI

İlbər Ortaylı 1947-ci ildə Avstriyada anadan olub. İbtidai və orta təhsilini İstanbul və Ankarada almış, 1965-ci ildə Ankara Atatürk liseyindən məzun olub. 1969-cu ildə Ankara Universiteti Siyasi elmlər fakültəsi və Ankara Universiteti Dil və tarix-coğrafiya fakültəsini bitirmiş, Vyana Universitetində slavyanşünaslıq və şərqşünaslıq üzrə təhsil almışdır. Çikaqo Universitetində magistr dissertasiyasını professor Xəlil İnalcığın rəhbərliyi ilə edib. 1974-cü ildə Ankara Siyasi elmlər fakültəsində "*Tənzimatdan sonra yerli idarələr*" adlı dissertasiya işi ilə filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi, 1979-cu ildə isə *"Osmanlı imperiyasında almanəsilli əhali"* adlı tədqiqat işi ilə dosent elmi adını almışdır. O bu universitetdən 1983-cü ildə istefa vermişdir. Vyana, Kembric, Qüds, Oksford, Berlin və Moskva universitetlərində qonaq müəllim qismində seminarlar və konfranslarda da məruzələr edib. Yerli və xarici elmi jurnallarda Osmanlı imperiyası tarixinin XVI-XIX dövrləri və Rusiya tarixi ilə bağlı məqalələri nəşr olunmuşdur. 1989-cu ildə Ankara Universiteti Siyasi elmlər fakültəsinin İdarəçilik tarixi kafedrasının müdiri olaraq işə başlamış, Bilkənd Universitetində də müəllim kimi fəaliyyət göstərmişdir. İlbər Ortaylı 2005–2012-ci illərdə Topqapı Sarayı Muzeyinin direktoru vəzifəsində işləmişdir. 2002–2014-cü illərdə Qalatasaray Universitetinin Hüquq fakültəsində Hüquq tarixi kafedrasının mü-

diri olan Ortaylı hələ də bu universitetdə və MEF[1] Universitetində müəllim kimi dərs deməyə davam edir. O, alman, ingilis, fransız, rus və fars dillərini bilir. Eyni zamanda, Beynəlxalq Osmanlı Araşdırmaları və Avropa İranşünaslıq Cəmiyyətinin üzvü, Rusiya Federasiyası Elmlər Akademiyasının Şərqşünaslıq şöbəsinin fəxri professoru, Bosniya və Herseqovina, Makedoniya və Monteneqro Elm və İncəsənət akademiyalarının üzvüdür.

***İlbər ortaylının nəşr olunmuş kitabları:***

*Osmanlı İmperiyasında qazılıq*
İlbər Ortaylı səyahətnaməsi
*Cümhuriyyətin birinci əsri*
*Türkiyənin yeni tarixi*
İmperiyanın ən uzun əsri
*Osmanlı İmperiyasında almanəsilli əhali*
*Osmanlı cəmiyyətində ailə*
*Qazi Mustafa Kamal Atatürk*
*Dəftərimdən portretlər*
*Bir ömrü necə yaşamaq olar?*
*Ottoman Studies (Osmanlı araşdırmaları)*
İstanbuldan səhifələr
*Discovering the Ottomans (Osmanlıları kəşf etmək)*
*Qədim dünya səyahətnaməsi*
*Yeni tarixin həqiqətləri*
*The Empires Longest Century (İmperiyanın ən uzun əsri)*
*Türkiyənin idarəetmə və təşkilat tarixi*
İnsan öz gələcəyini necə qurar?
*Vaxt itməz*

[1] MEF Universiteti – İstanbulda İbrahim Arıkan Təhsil və Elmi Araşdırmalar Vəqfi tərəfindən yaradılan qeyri-kommersiya özəl universitetidir. 2014–2015-ci tədris ilində açılmışdır. Bu dünyada "Tərs çevrilmiş sinif" təhsil modelini bütün tətbiq edən ilk universitetdir.

# MÜNDƏRİCAT

İlbər Ortaylı..............................................................5

Ön söz.....................................................................9

1 Dünya tarixində Türklər...........................................17

2 Avropa tarixində Türklər...........................................53

3 Anadolu tarixində Türklər .........................................91

4 Türklərin imperiya yaratmağa doğru irəliləyişi........113

5 Türklərin tarix səhnəsinə yenidən çıxması.................133

6 Türklər Balkanlarda...................................................145

7 Türklər üz-üzə: İldırım Bəyazid

və Əmir Teymur mübarizəsi........................................167

8 Fitrət dövründən İstanbulun fəthinə ...........................195

9 Türk imperiyasının yaranması......................................231

10 Tarixin dönüş nöqtəsi: İstanbulun fəthi...................249

11 Fateh Sultan Mehmetin vəfatı
və taxt uğrunda mübarizə ....................................................279
Əlavələr..................................................................................289
Əlavə 1 Fateh Sultan Mehmetin
İtaliya siyasəti .........................................................................291
Əlavə 2 Gənc oxuculara tarix haqqında bir neçə söz...299
Göstəricilər .............................................................................307

# ÖN SÖZ

*"Türklərin tarixi"* silsiləmizdən olan ilk kitab oxucular tərəfindən yüksək qiymətləndirildi. Türklərin Asiyadan Yaxın Şərqə gəlişi və onların burada tarixi dəyişdirdiklərinin şahidi olduq. Səlcuq dövrü və qısa zamanda dünyaya hakim olan Ali Dövlətin (Dövləti-Aliyyə) bu günlərdə çox müzakirə olunan yaranma dövründən bəhs etdiyimiz kitab bir çox universitetlərdə və məktəblərdə əlavə dərs vəsaiti kimi istifadə olunmağa başlandı. Oxucuların bu marağı silsilənin ikinci kitabı üzərində işləməyimizə də bir vəsilə oldu.

*"Türklərin tarixi"* kitab silsiləsinin ikincisində Mərmərə Bölgəsində (Vifiniya) kiçik bir bəylik olaraq yaranan, inkişaf edən və yarandığı ilk illərin üzərindən 150 il keçmədən Balkanlarda və Egeydə hakimiyyətini quran, Aralıq dənizi dünyasının son möhtəşəm imperiyası olan Osmanlı-Türk imperiyasının Rumelidən başlayan fəthlərindən sonra üç qitəyə yayılmasına şahidlik edirik. İki torpağın və iki dənizin hökmdarı (Sultanül-Bərreyn və

Xaqanül-Bəhreyn) olan Fateh Sultan Mehmet kimi İntibah hökmdarının dünyasını birlikdə müşayiət edəcəyik. Bu kitabda türk tarixinin böyük əsri, dünya tarixində isə çoxlu dəyişikliklərə səbəb olan XV əsr böyük yer tutur.

Müasir Türkiyə idarəçiliyinin formalaşmasını altı əsrlik ömrü olan türk imperiyasının, yəni Osmanlı imperiyasının tarixinə nəzər salmaqla başa düşmək olar. Bu adla ancaq Osmanlı imperiyasının bürokratik təşkilat planları və funksiyalarının öyrəniləcəyi qənaətinə gəlmək olmaz. Çünki Osmanlı təşkilatı şəhərlərin, kəndlərin, yəni ölkənin bütün iqtisadi-sosial sisteminin araşdırılmasını özündə ehtiva edən bir sistemdir. Bu keyfiyyət şübhəsiz ki, yalnız Osmanlı tarixinə xas deyil. Hər bir ölkənin tarixini öyrənmək üçün bu yoldan istifadə etmək lazımdır.

Əlinizdəki bu kitabda bəhs edəcəyimiz dövrün Türkiyə və türk tarixindən kənarda da bir mənası vardır. Bu gün Balkanlar, Dunay boyu, Yaxın Şərq və Şimali Afrikadakı sayları iyirmidən çox olan fərqli dil, din, irq və siyasi rejimə sahib ölkənin ümumi irsinin sahibləri kimi bəzi ümumi problemlərlə üzləşdiyini bilirik. Bu problemlər müəyyən qədər Osmanlı imperiyasının canlı tarixidir. Aralıq dənizi dünyasında üç Roma imperiyası var idi. Bu üç Roma yeni əsrlərin millətçi imperiyalarından fərqli olaraq öz ənənəvi strukturları və ideologiyaları olan siyasi-ictimai sistemlər idi. Bu ənənəvi Roma imperiyalarının üçüncü və sonuncusu türklərin imperiyası olan Osmanlı imperiyasıdır. Ona görə də deyirik ki, bu imperiyanın təşkilatlarını və quruluşunu araşdırmaq, türklərin tarixini araşdırmaqdan baş-

qa əlavə bir məna da daşıyır. Bu tarixi hadisə Aralıq dənizi bölgəsindəki insanların ortaq taleyi və ortaq keçmişdir.

Yaxın vaxtlara qədər Osmanlı imperiyasının tarixi türk ziyalılarının milliyyətçilik duyğularını, tarixi romantizmlərini ortaya qoyduğu mövzu idi. Balkan ölkələrinin ziyalıları da, eyni zamanda, öz qonşularına duyduqları nifrət hissinin fəryadları ilə qələmlərini işlədirdilər. Osmanlı tarixi nifrət edilən işğalçıya qarşı olan kinin və Balkan xalqlarının keçmişindəki qaranlıq və fəlakətin hekayəsi kimi çatdırılırdı. Məmnuniyyətlə qeyd etmək lazımdır ki, tarix anlayışındakı dəyişikliklər və real elmi metoda keçid cəhdləri artıq bu dövrü geridə qoyur. Bu gün artıq üç qitədə də insanlar problemlərə daha rasional yanaşmağa və fərqli gözlə baxmağa başlayıblar.

Türklərin, yəni III Roma imperiyasının tarixi bütün bu xalqların bəzən fəlakətlərlə, bəzən şərəfli hadisələrlə hördükləri ortaq keçmişlərinə aid bir abidədir. Osmanlı imperiyasının hakimiyyəti altında olan ölkələrin xalqları müasir dünyada öz yerlərini tutduqca bu ortaq mirasdan əldə etdikləri xüsusiyyətləri və xəstəlikləri birlikdə nəzərdən keçirərək tədbir görəcəklər.

Türk dilində təkcə ərəb və fars dilindən deyimlər deyil, italyan, rum, arami (assuriyalıların dili), macar, şərq və cənubi slavyan dillərindən gələrək artıq özünə yer etmiş çoxlu sözlər var. Eləcə də bu dillərdə çoxlu türk dilində söz və ifadələrə rast gəlmək mümkündür. Bu vəziyyət bizə Aralıq dənizi-Yaxın Şərq bölgəsində özünəməxsus şəkildə qalan heç bir sivilizasiyanın olmadığını göstərir. Türkiyə tarixi və ictimai nizamı da bir Aralıq dənizi sin-

tezidir. Buna görə də türklərin tarixi haqqında danışarkən Sasanilərin, Bizansın, ərəblərin, italyanların tarixindən də danışmalı oluruq.

Çünki gündəlik həyatımızın hər mərhələsində biz bu sintezin içərisində yaşayırıq. Türk mətbəxi bir Balkan-Orta Şərq sintezidir. Macarların Qullaşını[2], Rumelinin tərəvəz xörəklərini Mesopotamiyanın isti əyalətlərinə, Suriyanın şirniyyatlarını uzaq Balkan xalqlarının süfrələrinə gətirən məhz XVI əsr türk nizamıdır. Balkan dövlətlərindən tutmuş Fars körfəzinin bayramlarına qədər bu idarəetmənin qalıqlarını hər yerdə görmək mümkündür. Ərəb dünyasını meydana gətirən cümhuriyyətlərin sərhədləri müəyyən qədər köhnə Osmanlı imperiyasının əyalət sərhədləridir. Bəzən belə olmadığı üçün qədim sərhəd qəsəbələri sərhəd hesab olunurdu. Xüsusi mülkiyyət rejiminin müşahidə olunduğu ölkələrdə Osmanlı imperiyasının torpaq sisteminin qalıqları problemlər yaratmaqdadır. Bu qanun yaxın vaxtlara qədər Avropa ölkələrində qüvvədə idi.

Osmanlı imperiyasını türkçü olmamaqda ittiham etməyin heç bir tarixi əsası yoxdur. İmperiyalarda müasir millətçilik axtarılmır və bu, mümkün deyil. Bəziləri deyir ki, padşahların anaları türk olmayıb, guya fransız və ya ingilis krallarının anaları eyni millətdəndirlərmi? Əhəmiyyətli olan onların yaşadıqları ölkənin dilinə, mədəniyyətinə sahib ola bilmələridir. Xürrəm Sultan bu ölkədə şairələrdən biridir. Ehtimal olunur ki, ukraynalı və ya polyakdır, amma o, türk poeziyasının şairəsidir. Həm də

[2] Qullaş – ətli, tomatlı macar yeməyi